Çərşənbə axşamı, 14 yanvar 1919-cu il, nömrə 87

AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 11 rəbiülaxir sənə 1337. 14 kanuni-sani sənə 1919.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 70 qəpik.**

**Abunə şəraiti: Yanvarın birinədək Bakı üçün 24, başqa şəhərlərə 35 rublədir. Bir aylığı Bakıda 12, başqa şəhərlərdə 19 rublədir. Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.**

## ZAQATAL MƏSƏLƏSİ

Zaqatal okruqu Zaqafqaziyanın xalis müsəlman əhali ilə məskun vilayətlərindən biridir. Buradakı yüz min əhalidən, ən mübaliğəli hesabla, ancaq 5 min miqdarı "inqlo" adı ilə məşhur gürcümanənd [gürcülərə bənzər] bir cinsdən olub, mabaqisi [qalanı] qismən türk, qismən də ləzgi, həp müsəlmandır. Türkcə bütün müsəlmanlar arasında danışılır ümumi bir dildir. Bura əhalisi əskidən İlisu sultanlığı adı ilə muxtar və müstəqil bir həyati-siyasi ilə yaşayaraq, daima müsəlman məmləkəti olmuş, Rusiya tabeiyyətinə [tabeliyinə] keçdikdən sonra dəxi bir idareyi-müstəqilə [müstəqil idarə] halında bulunmuşdur.

Zaqatal okruqu Zaqafqaziyada təşəkkül edən cümhuriyyətlərin hangisi daxilində olmalıdır? Bu məsələ ortaya atılınca, yuxarıda söylənən əlamətlərə bir də bu vilayətin sıldırım Qafqaz silsiləsi ətəyində olduğunu əlavə etməlidir. Vilayətin Şimali Qafqaziya ilə olan rabitəsi aylarla bağlanır. Coğrafiya nöqteyi-nəzərindən Zaqatal, Nuxu qəzasının mabədidir [davamıdır]. Bunlar nəzərə alındığı zaman yuxarıdakı sualın cavabı kəndi-kəndiliyindən verilmiş olur.

Zaqatal əhaliyi-islamiyyəsi bu xüsusda məntiqin, milli, dini, ictimai və coğrafi məntiqin icab etdirdiyi cavabı zatən vermişdir. Daha Cənubi Qafqaz müsəlmanlarının mərkəzi komitəsi təşkil olunduğu zaman zaqatallı qardaşlarımız kəndi nümayəndələrini göndərməklə, bizimlə mərbut [bizə bağlı] olduqlarını göstərmişlərdi. Azərbaycan Hökuməti ilk dəfə olaraq Gəncədə təşəkkül eylədiyi zaman, Zaqatal vilayəti dəxi bu hökuməti tanıdı. Onun göndərmiş olduğu məmurları qəbul eylədi. Zaqatal Milli Komitəsi vilayətin Azərbaycan daxilində olduğunu rəsmən elan eylədi. Şimdiki halda dəxi Zaqatal nümayəndələri Azərbaycan Parlamanında isbati-vücud [iştirak] edirlər.

Meydanda bu qədər bariz sübutlar, cərh edilməz [rəddedilməz] dəlillər, söz götürməz bürhanlar [sübutlar] var ikən, Gürcüstan-Azərbaycan ittihadının daisi olan [birliyini müdafiə edən] "Qruziya" qəzetəsinin Azərbaycanın Zaqatal üzərindəki haqqi-hakimiyyətini [hakimiyyət haqqını] inkar edəcək bir tərzdə nəşriyyatda bulunmasına təəssüf etməmək qabil deyildir.

Azərbaycan Hökuməti hər bir nöq-

teyi-nəzərdən ixtilaf götürməz bir qitəsi [hissəsi] olan Zaqatala aid olan övraq [sənəd] və vəsiqələrin kəndisinə təslimi üçün Gürcüstan Hökumətinə müraciət eyləmişdi. Gürcüstan Hökuməti isə bu vilayətin kəndisinə aid olduğunu iddia ilə, məsələ həll olunmayana qədər istənilən övraq və vəsiqələrin Azərbaycan Hökumətinə verilməyəcəyini bildirmişdir. Gürcüstan Hökumətinin bu hər növ heyrət və təəccübə şayan [layiq] olan cavabını "Qruziya" qəzetəsi iki əllə imza edir. Həm də Gürcüstanla Azərbaycan münasibatına [münasibətlərinə] sui-təsir hasil edəcək [pis təsir göstərəcək] bu məsələdə Azərbaycan Hökumətinin bu kimi bir təkliflə Gürcüstana müraciət eyləməsini səlah [doğru] görməyir.

"Qruziya" qəzetəsi hüdud [sərhəd] məsələlərinin həllində yalnız "milliyyət" prinsipindən nəşət [çıxış] edib də, məsələni hangi yerdə hangi millət oturur, deyə həll etməyi müvafiq görməyir. Zaqatal okruqu tarixən bir Gürcüstan vilayətidir, deyir.

Biz bu məsələni şu sırada mövzuyi-bəhs etmək istəməzdik. İstəməzdik ki, arada feilən bir məsələ yox ikən, Zaqafqaziya cümhuriyyətləri bədxahlarına artıq söz danışmaq üçün fəzlə [artıq, əlavə] material verək.

"Qruziya" qəzetəsi torpaq üzərində yaşayan xalqın arzuyi-ümumisi, rə'yi-qatesi [qəti qərarı], nüfusun cinsiyyəti, dili, adat [adətləri] və əxlaqı və bütün bunlar üzərinə cəbrən [zorla] deyil, yerli xalqın kəndi teyyib-xatiri [könül xoşluğu] ilə vaqe olan olmuş bir işi (əmri-vaqeni) [faktı] deyil, xatiri sayılır əsas olmaq üzərə yalnız "Gürcüstanın hüquqi-tarixiyyəsini" etibara alır və ancaq bu düsturu təqdis edib [müqəddəsləşdirib] də iddialarını yalnız bu nöqtədə iqamə edərsə [meydana qoyarsa], o zaman əmin olsun ki, tək qalar, kəndisinə dost bulammaz. Gürcüstan böylə bir iştəha ilə yaşarsa, o zaman Qazax qəzası ilə Gəncə qəzasını dəxi təhlükəyə məruz görmək qorxusunu bəsləməyə haqlı olmazmıyız?

Bu kimi iddialar nəyə yarar əcəba? Demokrat Gürcüstan kəndisinə bir növlə isinəmməyən Axısxanı alar, cəbrlə olsa da Borçalını tutar, yerli əhalinin ruhuna, arzusuna, cinsiyyətinə və əzminə rəğmən, fərz edəlim, Zaqatal ilə Qazax və sairəyə malik olarsa, nə qazanar? Kəndisinə müxalif vilayətlər, kəndisinə darğın qonşular.

Biz Gürcüstan Hökumətini etidala [mötədilliyə], dostunu tanımağa dəvət ediriz. Azərbaycanla Gürcüstanın dostluq və anlaşmaqdan hasil edəcəkləri böyük mənfəətlər yanında bu kimi könül bulandırıcı hərəkətlərə məhəl [yer] qalmamalıdır. Təyini-hüdud [sərhədlərin müəyyənləşdirilməsi] kimi məsələlərdəki əsrimizin ruhuna uyan əsasların milliyyət və rə'yi-amm [camaatın rəyi] (referendum) olduğu hər kəsdən ziyadə Gürcistan Hökuməti başında duran sosial-demokratlara bəlli olsa gərək. Milli tələbləri demokratlıq cildinə geydirmək məharətində Sereteli kimi natiqəpərdazlar [nitq söyləməkdə məharəti olanlar] hər nə qədər mahir olsalar da, təsirləri yalnız Azərbaycan hüdudunu Neftlikdən bir az uzaqlaşdırmaq, Tiflisə nəfəs verdirmək üzərinə aid ola bilər. Yoxsa, qatı imperialist məsləki olan "hüdudi-tarixiyyə" [tarixi sərhədlər] əfsanəsini Sereteli cənabları belə söyləsə, kimsə onu bir həqiqət

olaraq qəbul edəmməz.

Zaqatal müsəlmanları isə heç bir vəchlə Gürcü Hökumətini qəbul edəmməzlər, onların böylə bir əzmdə olduqları gürcü məhafilinə [dairələrinə] məlum olsa gərəkdir.

Zaqatal okruqu Azərbaycanın zəngin, hasili-xübz [çörək qazanan; bərəkətli], qəyur [qeyrətli] və həmiyyətmənd [işgüzar] bir qitəsidir. Bu vilayət, Şərqi Qafqaziyanı anarxiya seli silib-süpürməkdə olduğu bir zamanda kəndi arasından kafi miqdarda könüllü çıxarmış, kəndisini müdafiə eyləmişdir. Azərbaycan Hökuməti əxzi-əsgərə [əsgər yığmağa] başladığı zaman, bu vilayət böyük bir sürur [sevinc] və şövqlə əsgərliyi qəbul eyləmiş, bütün gənclərini silah altına almışdır. Nasıl olur da böylə bir vilayətə bu qədər şövq, zövq və hissiyyatla mərbut [bağlı] olduğu məmləkətdən ayrılmaq, istəmədiyi bir məmləkətə qoşulmaq təklif olunar? Bir məmləkətin bir dövlət tabeiyyətində [tabeliyində] bulunması üçün müasirinin [müasirlərimizin, əsrimizin] qanacağına görə, hər şeydən əvvəl, o məmləkət əhalisinin könlü əldə olmalıdır.

Gürcüstan Hökumətinin Zaqatal okruqu üzərinə iddiayi-təməllük etmək [sahiblik iddia etmək] üçün əlində nəyi var? Azərbaycana vermək istəmədiyi övraqmı?

İştə, o qədər.

Varsın, bir tərəfdə əhalinin milliyyəti, dini, meyli, arzusu və güc istemal etmədən [zor işlətmədən] hasil olan bir əmrivaqe, digər tərəfdən də təsadüfən əldə qalan köhnə idarələrə aid bir taqım övraq və vəsaiq [vəsiqələr] olsun. Bitərəf bir məhkəmə hüzurunda bunlardan hangisinin daha qüvvətli bir höccət [sübut] olduğu bir taqım rəsmi mülahizələr və "hikməti-hökumət" [hökm sürməyin hikməti] kimi "nazik nüktələrlə" [incə mətləblərlə] bağlı olan Gürcüstan hökumətincə "məchul" olsa da, gürcü-türk dostluğunun mürəvvici [carçısı] bulunan "Qruziya" qəzetəsindən ötrü heç olmasa məlum olmalı idi.

Təəssüf olunur ki, gürcü qonşularımız "tarixi hüdud" prinsipini sui-təvilə uğradırlar [səhv yozurlar]; fəqət, ümid edəlim ki, vaxtın əhəmiyyətini dərk eylər də bu təvili fəna bir surətdə istemal etməyə [bu yozumdan arzuedilməz surətdə istifadə etməyə] qədər getməzlər.

*M. Ə. Rəsulzadə*

## ƏSGƏRLİK VƏZİFƏMİZDİR!

Bu vəzifə, bugünkü gündə biz azəri türklərinin ən vacib vəzifələrimizdən birisidir. Bu vaciblik həm o dərəcə mühümdür ki, bunun əhəmiyyətini son sənələrin sədəmatına [zərbələrinə, fəlakətlərinə] düçar olmuş biz azəri türkləri heç bir cəhətlə yüngül ədd [hesab] edəmməyiz. Zira, əsgərsizliyin, əsgər olmamaqlığın acılığını son hadisələr bizə layiqincə daddırdı. Zəhərli acılarını daddığımız bu hadisələrdən əlavə, indiki halda başqa millətlər kimi biz azəri türkləri də müstəqil cümhuriyyət qurmuşuz, müstəqil məmləkət təşkil etmişiz.

Cümhuriyyətimizin mühafizəsini öhdəmizə almazsaq, məmləkətimizin qarovulunu çəkməzsək, bu necə istiqlal

olar? Bu nasıl məmləkətdarlıq [ölkə saxlamaq] olar? Əsgər olmadığımız və əsgərsiz olduğumuz üçün idi ki, Tiflisin Seymi tərəfindən hər kəsə silah paylandı da, biz silahsız qaldıq. Bundan dolayı öz qüvvəmizlə silah ələ gətirmək üçün nə qədər fəlakətlərə uğradıq.

Əsgərsiz olduğumuz və əsgər olmadığımız üçün idi ki, Bakıda, Şamaxıda, İrəvanda, Qubada bir taqım nizami, yəni əsgərlik görmüş quldurların saldırışları qabağında dayanammayıb dağlara, səhralara qaçdıq. Hamımızın məlumu olan fəlakətlərə, müsibətlərə düçar olduq. Genə, əsgərsizlik və əsgər olmamaq nəticəsidir ki, qışın indiki soyuq günlərində İrəvan quberniyasının müsəlman camaatı erməni əsgərlərinin hücumuna uğrayıb, isti yataqlarından çıxıb, qucaqlarında uşaqları, yanlarında xanımları açıq səhralara, qarlı dağlara qaçmaqdadırlar. Halbuki, əsgərimiz olsaydı və biz də əsgər təlimi görmüş olsaydıq, başqalarına hücum etmək istəmədiyimiz halda, öz yerlərimizdə əldə silah olaraq sabit dayanıb qalardıq və saymadıqlarımızın qabağından çox rəzil sifətlərlə qaçıb məhv və pərişan olmazdıq.

Özlərimizi Qafqaziyanın ən birinci igidləri sırasında və tərəfi-müqabilimizi [qarşımızdakı tərəfi] də heçə saydığımız halda, əsgəri təlim görmədiyimiz üçün düçar olduğumuz bu fəlakətli hallar bizi büsbütün rüsvay və namusumuzu bərbad etdi. Namusumuza toxunan bu rüsvaylı fəlakətlərdən sonra mənə qalarsa yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər könüllü sifəti ilə əsgəri təlim almağa məcburuz. Zira əsgəri təlim almaqladır ki, namusumuzu, məmləkətimizi, hökumətimizi, hasili bütün var-yoxumuzu müdafiə və mühafizə edə biləcəyiz. Yoxsa, bir hadisə üz verdiyi zaman başqalarına ümidli olmaqla, onların köməkliyinə göz tikməklə və hallardan ibrət almayıb, yalnız baqqalığa, restorançılığa məşğul olunmaqla namus saxlamaq olmaz, məmləkət müdafiə ediləmməz, hökumət olmaz, istiqlal paydar [daimi] qalmaz. Əsgərsiz hökumətin sözü heç yerdə keçməz.

Əsgərlik; hazırlanıb da, quldurcasına o qonşunun, bu hökumətinin məmləkətinə hücum etmək, başqaların[ın] hüququna təcavüz etməkdən ibarət deyil. Əsgərlik də şərəfli bir vəzifədir ki, o vəzifə də ancaq camaatının namusunu, məmləkətinin hüdudunu, hökumətinin heysiyyətini mühafizə və müdafiə etməkdən ibarətdir. Bu vəzifələr dürüst düşünülərsə, ərz etdiyim kimi, yalnız cavanlarımız deyil, qocalarımıza varıncaya qədər mümkünlük hasil edib, özlərimizi bu vəzifənin altına girməyə məcbur görəriz.

Binaənileyh [ona görə], hökumətimizin əsgərlik dəvətini mümkünü olan bütün cavanlar canla-başla qəbul etməliyiz və şərəfli olan bu vəzifəni öhdəyə götürmək üçün hər kəs onun tərəfinə artıq bir sevinclə qoşaraq getməliyiz. Atalar, analar dəxi bu yolda öz köməkliklərini göstərməklə vəzifədardırlar [borcludurlar]. Namuslarını, məmləkətlərini, mal-dövlətlərini, yer-yurdlarını, izzətlərini, hökumətlərini, istiqlallarını müdafiə [və] mühafizə etmək üçün oğullarını sevinclərlə, məhəbbətlərlə, şadlıqla, vətənə və millətə xeyir-dualarla əsgərliyə göndərməlidirlər. İştə, ataların, anaların şərəfli, namuslu vəzifəsi də budur.

*M. A. Mirbağırzadə*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Royter ajansından)*

Varşavadan "Tayms" qəzetəsinə yazılır: Qrajdanski milissiya [mülki milis], hökuməti iş başından düşürərək Kabinə üzvlərini həbs etmişlərsə də, fəqət yenə onlar həbsdən xilas ola bilmişlərdir.

**Berlində müharibə**

Berlindən gəlmiş olan yekdigərinə zidd xəbərlər orada zühur edən hadisələr xüsusunda dürüst məlumat verməyə müsaidə verməyir. Yanvarın 7-də gəlmiş xəbərlərdən, Berlində qanlı müharibədən bir neçə yüz əhalinin qətl edildiyi anlaşılır. Vilhelmştrassedə xüsusi müharibədə spartaklar (bolşevik) Xariciyyə Nəzarətinə həmlə etmişlərdir. Görünür ki, axşam zamanı Hökumət onlara faiq [üstün] gəlmişdir.

Yenə, son gələn xəbərlər "Spartak" firqəsi tərəfindən Şpandauda cəbbəxana işğal edildiyini bildirirlər. Bütün gecə Berlində küçə müsadiməsi [toqquşması] vaqe olurmuş. Libknext irad etdiyi [söylədiyi] nitqində əmələləri [fəhlələri] hökumət istefa verməyincə işə başlamamağa dəvət edirmiş. Spartaklar Düsseldorf, Manheym və Oberhauzendə hökuməti əllərinə almışlardır.

* Belçika Senatında Van der Ol da bəyan eyləmişdir ki, nemeslər ümumiyyətlə Belçikadan qovulmalıdırlar.

* Polşa Ərkani-hərbinin [Baş qərargahının] məlumatına nəzərən, Lvovda polyaklarla ukraynalılar arasında qırğın müsadimə [toqquşma] gedir.

* Libknext (bolşevik) firqəsi Berlində qalib gəlmişdir. Libknext, imperator sarayını işğal eyləmişdir.

İndi alınmış olan xəbərlərdən anlaşılır ki, inqilab hərəkəti getdikcə qüvvətlənir. Libknext ilə düşmənləri arasında əlaqə fənalaşır. Burjuaznı dəstələr bütün qüvvələrini cəmləşdirirlər. Böylə xəbər verirlər ki, Libknextin müvəffəqiyyəti, Almaniya irticaiyyunlarının [irticaçıların] dəhşətli həyəcanlarına səbəb olmuşdur. Bütün mötədil firqələr Berlinin Müttəfiqlər tərəfindən işğal edilməsini məqul [mümkün, ağlabatan] sanırlar. Bu münasibətlə də ingilis və fransızlara olan münasibat [baxış] bəzi məhafillərdə [dairələrdə] dəyişir.

* Parisdən xəbər verildiyinə görə, imperator Vilhelm, guya qətl edilmiş imiş.

* Qaliş dairəsində polyak və nemes dəstələri arasında müsadimə [toqquşma] davam edir.

* Kiyevdə idareyi-örfiyyeyi-əsgəriyyə [hərbi fövqəladə vəziyyət] elan və divani-hərb [hərbi məhkəmə] təsis edilmişdir. Direktoriya əleyhinə gedənlər divani-hərbə təslim ediləcəkdir.

* Sevastopoldan bildirildiyinə görə, ingilis qarovullarına müsəlləh [silahlı] surətdə hücum edilir.

* Peşt - Bolqariyanın böyük şəhərlərində, o cümlədən Sofiyada müdhiş iğtişaşlar vaqe olduğu xəbər verilir. İxtilalı

[üsyanı] yatırmaq üçün fransız qoşunları dəvət edilmişdir.

* Berlin - Şeydeman Hökuməti nəşr etdiyi bir intibahnamədə [vərəqədə] camaatı spartakları əzməyə dəvət edir.

* Lion - Berlində əhvalın mükəmmələn müəyyən bir halda olduğu xəbər verilir. Səşənbə [bazar ertəsi] günü küçələrdə hökumət tərəfdarları ilə Spartak tərəfdarları arasında qızğın müsadimə vaqe olmuşdur [toqquşma baş vermişdir].

* Berlin - İtaliyada böhrani-vüzəra [hökumət böhranı] qurtarmışdır. Milli Sosialist firqə, xilafgirlər [müxalifət] tərəfinə keçmişdir. İtaliya sosialistləri Rusiya əleyhinə olan iqdamatdan [təşəbbüsdən] İtaliyanın ictinab etməsini [çəkinməsini] tələb edirlər və əlavə edirlər ki, bu məqsədlə Rusiya əleyhinə nemeslər göndərilsinlər.

* Berlin- Vilson bir məclisdə demişdir ki, Avropanın sabiq müvazinəsi əvəzinə bundan sonra fövqəladə qüvvə təşkil edən dövlətlər dəstəsi olmalıdır.

**Gürcü teleqraf ajansından**

Poti- Qara dənizə varid olmuş [gəlmiş] ingilis hərbi gəmiləri bütün Gürcüstan sahillərini seyr etmişlərdir. Paroxodların bir hissəsi Batuma əzimət etmişdir [getmişdir]. Dekabrın 30-da Batuma İngiltərənin 4 hərbi gəmisi varid olmuş, onlar iskələ [liman] rəisi Qlaviadan Poti iskələsində duran paroxodlara baxmağa icazə xahiş edirlər. İngilis nümayəndəsi sifəti ilə paroxod komandiri iskələdə olan minanosun [torpedo gəmisinin] özünün ixtiyarına verilməsini xahiş eylər. Qlavia buna cavabən, Gürcüstan Hökumətindən icazə olmadıqca bu xahişinə əməl edə bilməyəcəyini bəyan etmişlərdir. Bu barədə Tiflisdən cavab istənilmiş, Gürcüstan Hökuməti icazə verdikdən sonra paroxod ingilislərə təslim edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Müttəfiqlərin Hacı-Tərxana hərəkəti**

“Borba” qəzetəsi yazır ki, alınan məlumata görə, Müttəfiq dövlətlər Batuma böyük qüvvələr çıxarıb, bolşeviklərin arxasında əməliyyatda bulunmaqdan ötrü Bakı ilə münasibatı [rabitəni] qaydaya salırlar. Müttəfiqlərin qəsdi Hacı-Tərxanı zəbt etməkdir. Quruya əsgər çıxarmaqdan ötrü hal-hazırda bütün bəhri-Xəzər [Xəzər dənizi] donanması Müttəfiqlərin əlindədir. İdil nəhri donduğuna görə, boleşviklərin Müttəfiqlər əməliyyatı əleyhinə bir iş görmələri müşkülləşir.

**İngilis manufakturası**

İngiltərə maryaklarının [dənizçilərinin] dediyinə görə, İngiltərə bazarı manufaktur malları ilə doludur. Uzun müddət İngiltərədən əcnəbi məmləkətlərə mal çıxarılmadığından, malın miqdarı daha da artmışdır. Manufaktura mallarının qiyməti müharibədən əvvəlki qiymətdən aşağı düşmüşdür. Bu qərar üzrə bu yaxın zamanda Rusiyadakı alış-verişçilərin dimağına düşməyən [ağlına gəlməyən] qiymətlə İngiltərə malları gətiriləcəkdir.

**Gürcüstanda**

Gürcüstanda həbs edilən ermənilərin

işlərinə baxmaqdan ötrü general-qubernator Maqlakelidzenin sədarəti [sədrliyi] altında bir komissiya təşkil edilmişdir. Tiflis qubernatoru Gürcüstan, Azərbaycan və İran təbəəsi [vətəndaşı] olan məhbus ermənilərin azad edilməsi haqqında bir əmr vermişdir. Qubernatorun bu əmri, müharibədə əsir düşənlərə şamil deyildir.

**Soçi nahiyəsində**

"Borba" qəzetəsi yazır ki, bu axır vaxt Soçi nahiyəsi haqqında bir çox sözlər danışılır, hətta, Soçi nahiyəsinin Könüllü ordu əlinə keçməsi də rəvayət olunurdu. Hal-hazırda mühəqqəq olmuşdur [dəqiqləşmişdir] ki, Soçi heç bir kəs tərəfindən alınmayıb, Gürcüstan dairəsində qalmaqdadır. Könüllü ordu tərəfindən heç bir hərəkat olmamışdır. Gürcü əsgərləri Soçi nahiyəsində qalmaqdadırlar. Qara dəniz sahili cəbhəsinin komandanı böylə bir əmrnamə nəşr etmişdir: "Təhti-idarəmdə [idarəm altında] olan bütün nahiyə əhalisinə xəbər verirəm ki, hökumətimin əmrinə görə mən əsgərləri cəbhədən götürməyib, hətta bir tərəfdə bir çıxış olduğu zaman zərbəni həman tərəfə döndərəcəyəm." Axırıncı alınan xəbərlərə görə, Soçi nahiyəsi məsələsi Sülh Konfransında həll ediləcəkdir.

**Gümrü mövqifinin patlaması**

Tiflis qəzetələrinin yazdığına görə, yanvarın 4-də Gümrü (Aleksandropol) möviqifi [stansiyası] patladılmışdır. Bu barədə hələ təfsilat alınmamışdır.

**Qara dənizdə**

Potidən verilən xəbərlərə görə, indiyə qədər Qara dənizə Müttəfiqlərin 300 ədəd hərbi və nəqliyyat gəmiləri daxil olmuşdur. Bu gəmilərin çox hissəsi hal-hazırda Ukrayna və Romaniya limanlarında dayanmaqdadır.

**Hindistan heyəti-mürəxxəsəsi**

15 nəfərdən ibarət Hindistan heyəti-mürəxxəsəsi [nümayəndə heyəti] Sülh Konfransında iştirak etməkdən ötrü Londona varid olmuşdur [getmişdir].

**Petroqradın işğalı**

"Bakinets" qəzetəsinin yazdığına görə, Kronştadt üç həftə bundan irəli ingilislər tərəfindən zəbt edilmişdir. İngilis gəmiləri birinci top gülləsi buraxdıqdan sonra matroslar Kronştadtın təslim olunmasını ingilislərə xəbər verməkdən ötrü elçi göndərmişlərdir. Bir həftə keçdikdən sonra Müttəfiqlər bilamümaniət [maneəsiz] Petroqradı işğal etmişlərdir. Şəhər alınmadan əvvəl, fəhlələr öz təşəbbüsləri ilə şəhərdən bolşevik hökumətini çıxarıb qovmuşlardır.

**Almaniyada**

Berlində olan Libknext (bolşevik) firqəsi qalib gəlmişdir. Libknext imperator sarayını zəbt etmişdir. Axırıncı xəbərlərə görə, hərəkat şiddətlənməkdədir. Libknext ilə rəqibləri arasında münasibat kəskinləşməkdədir. Burjuaziya təşkilatları bütün qüvvələrini cəm etməkdədirlər.

Berlindən xəbər verirlər ki, Şverin ətrafında torpaq məsələsi üstündə böyük iğtişaşlar vaqe olmuşdur. Cəbhədən övdət edən [qayıdan] saldatlar da bu iğtişaşlarda iştirak etmişlərdir. Bir çox mülkədar evləri xarab edilmişdir.

**Şimali Qafqaziyada**

Şimali Qafqaziyada Padin istiqamətində general Kolosovski, Aleksandrovsk kəndi yanında bolşeviklərə qalib gəlmişdir. Bolşeviklərin 6 piyada və 4 süvari alayı pərakəndə edilmişdir [dağıdılmışdır].

* Könüllü ordu əsgərləri Krımda, Berdyansk, Melitopol və Yuxarı Tokmaq tərəfdə əməliyyatda bulunurlar.

* Rəsmi verilən xəbərlərə görə, Könüllü ordu əsgərləri Xarkova daxil olmuşlardır.

## BAKI NEFT TİCARƏTİ VƏ ONUN MÜXTƏSƏRCƏ TARİXİ

### VII

Bir vaxt 15 sajından artıq qazılmağa izin verməyən hökumət, bu gün 40 sajın dərinliyə izin verir. Səbəb də odur ki, qabaqlarda neft çox dayazdan çıxırdı, Amma bu gün bəzi yerlərdə 40 sajınlıq icazə də kifayət edəmməyir. Hətta bir çox quyuların dərinliyi bu gün 70-80 sajına çatmışdır.

Dərinliyi 40 sajına çatmış quyunun gər [əgər] neft məhsulatı yoxdursa, var-yoxunu bu quyuya sərf etmiş bədbəxt quyuçu aya [görəsən] nə çarə eyləsin? Bunu atıb yeni bir quyu qazılmasınamı şüru etsin [başlasın]? Yaxud, köhnə quyunu dərinləşdirib aşağı qatlaramı getsin?

Aşağı qatları keçməyə hökumət izin verməyir. Təzə quyunun qazılması da beyhudə və bicadır [boşunadır]. Zira, təzə quyu da köhnə quyu kimi 40 sajınadək neft asarını [əlamətini] göstərməyəcəkdir. Bəs quyuçunun təklifi nədir? Bunun təklifi ancaq 5-6 min manat sərf etdiyi quyunu, xəlvət də olsa, qazıb gizlicə 40 sajından aşağı getməkdir. Odur ki, hökumətin ziddinə olaraq gizli quyu qazmaq adəti bu gün bir çox mədənləri tutmuşdur.

Bəs [deməli], bu 40 sajinlıq məhdudat gərək aralıqdan götürülsün.

Dərinlik məhdudatından əlavə, hökumətin bir də ağır bir məhdudatı vardır ki, o da neftli quyulara borular (обсадные трубы) sallanıb ətrafı torpaqla doldurmaqdan ibarətdir. Borular motor və vışka [buruq] əvəzinə əl ilə gərək sallanılsın. Ancaq bundan sonra məhz borulu quyulardan neft çəkilməsinə ixtiyar [icazə] verilir.

Əvvəla, 40 sajınlıq bir quyuya əl ilə boru sallamaq nə qədər çətindir və bəlkə heç mümkün deyil. Bu barədə ərbabi-fənn [elm adamları, mühəndislər] vaxtında bəhs açmışdır. Lakin burada nazik [həssas] bir mətləb vardır ki, ona hökumət kişiləri [adamları] məna verməmişlərdir. O da bundan ibarətdir ki, əl quyularının dibindən bir qədər neft qalxıb durulursa, yenə neftin ən böyük məhsulatı quyunun yuxarı qatlarından ənvai [müxtəlif] çeşmələrdən üzü aşağı axıb dibində cəmləşir. İştə, hərgah quyulara borular salınıb dalları torpaqlanarsa, divarlarda bir çox çeşmələrin gözlərini tutub neft axıntılarını bağlayacaqdır. Dib neftinin ümidinə qalarsa, bu da əmələcatın məxaricini [işçilərin xərcini] ödəmədiyi üçün böylə borulu quyuların həm sahibinə və həm də xəzinəyə heç bir mənfəəti olmayacaqdır.

Bundan əlavə, əhli-xibrənin [mütəxəs-

sislərin] məlumu olduğu üzrə, quyuların nefti çəkildikcə, çeşmələrin gözləri qum ilə dolub tutulur. Ona görə heç olmazsa, ildə bir kərə bu qumu təmizləmək üçün gərək quyulara kənkan sallanılsın. Lakin quyular borulu olarsa, quyulara adam sallamaq mümkün olmadığı üçün müruri-zaman ilə [vaxt keçdikcə] çeşmələr tamamən tutulub, neftin məhsulatı da axırda kəsiləcəkdir.

Amerikan karastıları [alətləri] ilə quyuları təmizləmək istəmişlərsə də, bir şey hasil olmamışdır. Zira, ağır karastılar quyunun dövrə taxtalarına dəyib onları parçalayır, qırır və bu zərər-ziyandan əlavə, nəticəsi də faydasız və çox baha tamam olur. Hərgah quyuların başına ağızlıq qayırılarsa, bunlar da yuxarıda zikr olunan bəlaya məhkum olacaqlar.

Sabiq Qafqaz canişini təsdiq etdiyi qanunların bir maddəsi də, quyular torpaqlanandan sonra yenidən əl buruğu ilə quyu qazmaq üçün bir ilin müddətinə sair xahişməndlərə [istəyənlərə] icarəyə, yaxud razvedkaya [kəşfiyyata] verilsin. Təcrübə bunu göstərir ki, əl buruğu ilə bir ildə 20 sajından artıq qazmaq olmayır. Böylə olan surətdə icarə müddəti tamam olarkən icarəçi məramına nail olammayıb, hətta bir çox əbəs məsariflə [xərclə] qoyub qaçasıdır. Köhnə icarəçi qoyub qaçarkən, quyuya sərf etdiyi boruları da belə çıxarammayıb hər şeydən məyus olur. Qaçmadığı halda həman şərtlərlə yenə iş görə bilməyib, ikinci il də aciz qalır. Axirüləmr [axırda] məsələ razvedka ilə kəşf olunub pərdə salınır ki, tamam qanunların məğzi və arzusu həman razvedkadır.

Qabaqkı məqalələrdən aşkar oldu ki, Jak cənabının düzəltdiyi qanunlar nə insaniyyət nöqteyi-nəzərindən və nə də xəzinə mənfəəti mülahizəsi ilə olmayıb, min məşəqqətlə əhalinin hazırladığı mədənləri böyük firmaçılara yedirtmək idi. Qurd quzunu yemək istədiyi halda yüz cürə bəhanələr icad etdiyi kimi, bizim qanunçuların da məqsədi bu qanunlar məhdudatı ilə işi razvedkaya müncər etmək [gətirmək] idi. Razvedka (yəni bələdləmək) qanunu bundan ibarətdir ki, razvedkaçıya yaxud bələdçiyə 37 desyatin yer verilir, bu şərtlə ki üç ilin ərzində yerin hansı cəhətində olur olsun 200 sajınlıq dərinliyində bir buruq quyusu qazsın. Bu quyudan hər nə qədər neft hasil olarsa, hamısı məccanən [pulsuz] bələdçinin mənfəətinə qalır. Hərgah bu quyuda güclü neft çeşmələri və axıntıları tapılarsa, əvvəl vaxt yerin bəyənildiyi tərəfindən 5 desyatin 30 ilə, ildə desyatini 100 rublə icarə şərti ilə həman bələdçiyə verilir ki, bu 5 desyatin yerdə quyular qazdırıb özü üçün mədən saldırsın. Qalan 32 desyatin yer bu fəqərədən [hadisədən] sonra firmaçılar arasında böyük şöhrət qazanıb, xəzinə tərəfindən torq [tender] vasitəsilə artıq qiymətlərə satılır.

İştə, bələdçilər neft əlaməti aşkar olmayan yerlərə məhəl qoymayıb, sabiq hökumətin müsaidəsi [icazəsi] ilə o yerə soxulurlar ki, orada biçarə əl quyuçuları çoxdan iş görməkdədirlər.

Halbuki, bələdçilərə və razvedkaçılara izin verirlər ki, nefti o yerlərdə axtarsınlar, harada ki, neft əlaməti hələ məlum deyil! Bir şey ki, quyuçular əli ilə çoxdan tapılmışdır daha neftli yerlərdə bu nə razvedkaçılıq?

*Fərhad Ağazadə*

## ŞƏHƏRİMİZDƏ XƏSTƏLİK

Rus[ca] "Azərbaycan" qəzetəsinin Bakı xəstəliyinin statiska qismində səpmə yatalağa mübtəla olanların qədəri qeyri naxoşlardan çoxdur. Deməli, şəhərimizdə yatalaq xəstəliyi davam edir.

Məlumdur ki, səpmə yatalaq köçəridir [yoluxucudur]. Məlumdur ki, hər bir xəstəliyin artması, sirayət etməsinin [yoluxmasının] ən mühim səbəblərinin biri natəmizlikdir. Bu saatda hansı bir küçə ilə keçərsən, orada zibil koması görməmək qeyri-qabildir və ya hansı bir həyətə nəzər yetirsən zibil qutuları dolub daşmaqları ilə bərabər, qoxusu da hər yeri tutubdur. Nə üçün şəhər təmzilənmir və nə üçün bu barədə bir sərəncam edilmir?

Şəhəri təmiz etmək üçün Bələdiyyə İdarəsinin "Aboz" adlı böyük bir müəssisəsi vardır. Necə ki, məlumdur həman "Aboz"un axırıncı, yəni 1918 sənə smetasına məbni [əsasən] şəhəri təmiz etmək üçün lap azı 220 atı, 175 arabaçısı, 250 küçə süpürənləri, şəhər ətrafında 20-yə qədər qarovul və zibil yandıranları, gözətçiləri və qeyrə, cəmi gərək 500-ə qədər fəhlə şəhəri təmiz edəydilər. Hətta şəhərin Sihhiyyə [Sanitar] komisyonu bu smeta barəsində bir çox iclaslar qurub, şəhəri təmiz etməyə bu miqdarı kafi görmədi. Ya ştatın, ya qeyri makinə alatı (avtomobil kimi) artması barəsində həmin komissiya bir neçə layihənamə düzəldib Bələdiyyə İdarəsinə təqdim etdisə də, hələ ki, nəticəsini görməyirik.

"Aboz"da isə lap azı dediyimiz 220 atdan 45-i qalmış və ondan da neçəsi işləyir, Allah bilir. 500 fəhlədən isə 300 də qalmamışdır. Bu azalmanın əvəzində isə, deyəsən 2 avtomobil artırılmışdır. O[n]lar da ki, yağmur nəticəsindən dağıdılmış küçələrdə bir iş görə bilməyirlər. Xəstəlik hər gün tərəqqi etməkdədir və tərəqqi nəticəsi çox fəna və ağırdır. Biz isə heç bir fikir çəkməyib, əli qoynunda oturub gözləyirik ki, nə vaxt "aboz" gəlib küçəhəyəti təmiz edəcəkdir.

Təəccüb ediləsi hal burasıdır ki, şəhərdə ən böyük Bələdiyyə İdarəsi, Səhiyyə Nəzarəti, Sihhiyyə komissiyaları, çoxlu avtomobil, çoxlu at, qatır və qeyrə ola ola, bir tədbir çəkilməyib ya bir sərəncam edilməyir. Onlardan əlavə isə öz tərəfimizdən də bir fəaliyyət görsənilmir.

Xəstəlik tərəqqi etməkdədir. Ümidlə yaraya dərman etmək olmaz. Sərəncam çəkməli, tədbir etməli, özümüz işə girişməliyiz. Özümüz təmizliyə bir çarə aramalıyız.

*C. P.*

## ERMƏNİ XANIMLARINA MÜRACİƏT

İrəvan, Qarabağ və Lənkəranda olan təqsirsiz qurbanlar barəsində hər gün ah, zar, nalə və fəqanlardır ki, yetişir. Hər gün müavinət [yardım] barəsində israr edilir, kömək istənilir. Minlərlə arvadlar, uşaqlar kəsilir, minlərlə müsəlmanlar aclıqdan və soyuqdan həlak olurlar. Kəndlər yanır, camaatın müqəddəsatı təhqir edilir, əsrlərdən bəri cəm edilmiş olan camaat sərvəti məhv olur. Fəqət, dəhşət bunlarla qurtarmır, bəlkə bu halların ucu-bucağı, intəhası olmadığındadır.

Axıdılan qardaş qanı ilə müdhiş ədavət toxumu səpilir, ədavət ağacları əkilir

ki, onun bəhəri [meyvəsi, nəticəsi] də çox yaman olacaqdır. Kor olmuş bir dəstə mütəəssibləri [fanatikləri] saxlamaq olmayır. Halbuki, çoxdan və çoxdan bəri bu qanların qabağı alınmalı idi. İndi də olsa düşünməlidir ki, bütün bir milləti kəsib məhv etmək qabil deyildir.

Neçə vaxt bundan əvvəl müqəddəs iş üçün sülh və müsalimət [əmin-amanlıq] paydar etmək niyyəti ilə bizi dəvət edən erməni bacılarımız, indi nerədə qalmısınız? Hərgah sizin o zamanki dəvətiniz rəqiq [həssas] xanımlar qəlbindən çıxan səmimi bir dəvət idi, indi onu isbat ediniz. İndi qövldən feilə [sözdən işə] keçiniz. Yetər bu qədər qanlar!

Siz bizə deyirdiniz ki:

"O zaman ki, hər bir yerdə sülh sözü danışılır, böylə bir əhəmiyyətli zamanda bizim səsimizin eşidilməməsi cinayətdir."

Böylə isə səsinizi qaldırınız, çəkilmiş olan qılıncları saxladınız.

*Bir dəstə müsəlman xanımları*
*naminə Ziba xanım Qayıbov və*
*Sara xanım Vəlibəyov*

## QARABAĞ ƏHVALI

Qarabağa göndərilmiş və ifayi-vəzifə bə'dində [vəzifəsini yerinə yetirdikdən sonra] bugünlərdə qayıtmış olan komissiya əzasından [üzvlərindən] Parlaman məbusu Qara bəy Əliverdibəyov cənabları ilə vaqe olan müsahibəmizdən böylə anlaşılır ki, Qarabağ uyezdlərindən hamısından artıq ağır hal keçirməkdə olanı əvvəla Zəngəzur və saniyən [ikincisi] Şuşa uyezdləridir.

Zəngəzurdan gələn mürəxxəslərin [nümayəndələrin] – ki, onlardan biri Baxış bəy Sultanov, digəri Xudabaxış Sultanov və biri də Bəhlul Əfəndizadə cənablarıdır – sözlərindən anlaşıldığı üzrə, Zəngəzurda ermənilər tərəfindən dağıdılan və xarab edilən kəndlərin ədədi 119 parədir ki, bunların 40 mindən artıq olan əhalisi qırıldıqdan sonra, yerdə qalanları yer və yurdlarından qaçıb Qarabağın sair yerlərinə səpələnibdirlər. Bu qaçqınların halı o dərəcədə fəlakətlidir ki, yazılmaqla qurtarmaz.

Türklər Zəngəzur tərəflərində olarkən taxıl yığıb dörd-beş anbar doldurubdurlar ki, əqəllən [ən az] otuz-qırx min put taxıl edir. Məbus əfəndi məzkur [adı keçən] mürəxxəslərin dəxi istidasına [xahişinə] görə hökumət yanında təvəssüt [vasitəçilik] edir ki, bu buğdanın heç olmasa bir qədəri Zəngəzurdan gətirilib Şuşa uyezdinə dağılmış olan, ac qalan qaçqınlara verilsin.

Şuşa uyezdinin özündə də aclıq, xəstəlik davam etməkdədir. Yaxşı ki, Ağdamda Ağdamın öz əhlindən olan iki nəfər doktor olub, naxoşlara və xəstəliyə qarşı böyük bir hümmətlə [qeyrətlə] iş görməkdədirlər. Bunlar biduni-təmənna [təmənnasız] öz xərcləri ilə naxoşları tədavi [müalicə] edən kimi, əhaliyə dəxi kamali-rəğbət ilə kömək edib lazım olan ev, mənzil və sair köməkləri müzayiqə etməyirlər [əsirgəmirlər]. Bu doktorlardan birisi Bahadır bəy Əliverdibəyov və o biri də Fərrux bəy Ağakişibəyovdurlar. Təəccüb burasıdır ki, buraya "divizionnı vraç" [diviziya həkimi] sifəti ilə bir nəfər cavan doktor gətirilib, bu iki nəfər doktorların

üzərində hakim yerində təyin edilibdir. Halbuki, həman vraç [həkim] Abdulla Həmid Qənizadə yeni kursu qurtarmış və ola bilsin ki, heç qurtarmamış olub, bilik və təcrübə işlərində nə Bahadır bəyin yerini verə bilər, nə də Fərrux bəyin.

Şuşa uyezdində [qəzasında] ermənilər quldurluqlarında davam etməkdədirlər. Hələ məbus əfəndi orada olarkən uyezd qaimməqamı [qəza rəisi] Abuş bəy Qalabəyov namına [adına] Şuşa pristavından raporlar gəlirdi. Bunlar, raporlardan anlaşıldığı üzrə, 6 nəfər erməni qulduru Xəlfəli yoluna tökülüb Alpoutlu Hüseyn Məşədi İbad oğlu nam [adlı] bir nəfəri soyub var-yoxunu əlindən alıbdırlar. Bədəhu [sonra], həman ermənilər Kəhrat yoluna keçib, Malıbəyli arabalarını soyub, əzcümlə [o cümlədən] Məşədi Səlim Quliyevin bir çox şeylərini aparıbdırlar. Xoramord erməniləri dəxi Ağdama gedən Kolanı müsəlmanlarını soyub, 6 yük şeylərini alıbdır ki, 10 min manat ziyan eyləyir. Bu gün quldurluq ermənilər arasında bir sənət yerinə giribdir. Bunlarla müntəzəm mübarizə lazımdır.

Ağdam camaatı, məbus əfəndinin sözünə görə, hökumətdən bunu da istida [xahiş] edirlər ki, Ağdamın özündə xəzinə şöbəsi açılsın ki, bu xüsusda sair yerlərə müraciət etmək məcburiyyəti aradan götürülsün.

Bilümum [bütün] Qarabağ əhalisi ərzaq və xəstəlikdən üsrət [çətinlik] çəkdikləri kimi, manufaktur mallarının yoxluğundan dəxi əziyyət çəkməkdədirlər. Hökumətimizdən təvəqqe olunur ki, oraya ağ bez və bu kimi arşın malı göndərilsin ki, xalq özünə tuman-köynək hazırlaya bilsinlər.

Posta-teleqraf işləri dəxi arzu edilməyən fəna bir haldadır. Məktublar və teleqramlar vaxtlı-vaxtında çatmır. Bir çox yerlərdə teleqraf işləmir. Yollar dəxi pis gündədir. Yevlax-Şuşa yolu bir çox yerlərdə yağış və sel nəticəsi olaraq dağılıb, araba keçməz olubdur.

Şübhəsizdir ki, lazımi diqqət yetirilib ciddiyyətlə işə girilərsə, bu fənalıqların qabağı alınıb, xalq dəxi rahat yaşamaqla, şikayət yeri qalmaz.

## MÜXTƏLİF XƏBƏRLƏR

Noyabr ayı axırlarında Bakıda tif azarından mərhum olmuş naxçıvanlı Hüseyn Musayevin cənazəsini Bakıda olan naxçıvanlılar Naxçıvana göndərməkdən ötrü Tiflisə aparmışdılar. Tiflisdən gələn bir nəfər Naxçıvan əhlinin rəvayətinə görə, mərhumun cənazəsi gürcü-erməni toqquşmasından bir neçə gün əvvəl 14 nəfər Naxçıvan müsəlmanları ilə Tiflisdən yola salınmışdır. Qarakilsədə ermənilər həman müsəlmanları və onlarla bərabər 4 nəfər İran təbəəsini [vətəndaşını] tutub öldürmüşlər. Həman adamlardan Məhəmmədəli nam [adlı] [bir şəxs] ilə cənazənin hara aparılmasından bir xəbər yoxdur.

- Ermənistanda olan gürcü siyasi nümayəndəsi Mdivani erməni-gürcü toqquşması zamanında Tiflisə qayıdarkən, onunla bərabər bir nəfər Ordubad əhli gəlib Tiflisə çıxmışdır. Lakin 6 nəfər iranlının Qarakilsədə başlarına nə gəldiyi məlum deyildir.

## BAKI XƏBƏRLƏRİ

### Lənkərana uyezdni naçalnik göndərilməsi

Lənkəran uyezdində Azərbaycan Hökumətinin qanununu bərpa etməkdən ötrü keçən gün Lənkəran şəhərinə uyezdni naçalnik [qəza rəisi] göndərilmişdir.

### Böyük təhlükə qarşısında

Şəhərdə hökmfərma olan yatalaq azarı ilə mübarizə etməyə ciddi çarələr düşünməkdən ötrü keçən gün Bələdiyyə salonunda şəhər həkimlərinin təcili iclası dəvət edilmişdi. Şəhərin sihhiyyə əhvalı [sanitar vəziyyəti] haqqında doktor Lurye müfəssəl məruzədə bulunduqdan sonra, gəldikcə şiddətlənməkdə olan xəstəlik haqqında müzakirat başlanmışdır. Hesaba görə, hər gün 300 nəfər azarlanmaqdadır. Azarlılardan 100-ə 30 nəfəri ölür.

Müzakirat qurtardıqdan sonra bir çox tədbir maddələri qəbul olmuşdur. Bu maddələrdən ümdələri bunlardır:

1- Həkimlər cəmiyyəti bütün hökumət və ictimai təşkilatlara müraciət edib, xəstəliklə mübarizə üçün maddi müavinət [köməklik] göstərməyə dəvət edir.

2- Həkimlər xəstəliklə mübarizə edən cəmiyyətə hamı təşkilat nümayəndələrinin cəlb olunmalarını lazım görürlər.

3- Cəmiyyət, hamı [bütün] xəstəxanaların müsri xəstəxanaya [yoluxucu xəstəliklər xəstəxanasına] təbdil edilməsini [çevrilməsini] lazım bilirlər.

4- Biçiz [yoxsul] əhali üçün pulsuz hamam açmalıdır.

5- Məhəllələrin təmziliyinə baxmaqdan ötrü kontrol təyin edilməlidir.

6- Petrovsk, Ənzəli və qeyri yerlərdən azarlıların gətirilməsi qadağan edilməlidir.

7- Bu tədbirləri həyata tətbiq etməkdən ötrü nəqliyyat vəsilələri [vasitələri] lazımdır. Buna görə də Bələdiyyə İdarəsinə və Parlamana müraciət etməlidir.

İngiltərə komandanlığı xəstəliklə mübarizə edən cəmiyyətə izhar etmişdir [bildirmişdir] ki, 50 qatır ilə 25 araba, cəmiyyət ixtiyarına vagüzar edə [verə] bilər.

* Ticarət və Sənaət Nəzarətinin smeta layihəsi təsdiq üçün nazirə təqdim edilmişdir. İşbu smetada 335 min rublə məxaric göstərilmişdir.

* Yanvarın 2-dən təzə əmr verilənə qədər Ticarət və Sənaət Nəzarəti ilə ticarət müqavilənamələrinin əqd edilməsi [bağlanması] dayandırılmışdır.

* Müvəqqəti olaraq təzə binagüzarlıq edilənədək [sərəncam verilənədək] Azərbaycan dairəsinə bu aşağıda yazılan şeylərin gətirilməsinə icazə verilmişdir: taxıl yükləri, qənd, tənbəki, yağ və qeyrə, dərman, xərəzi malı [xırdavat], hər cür manufaktura, mə'dəni şeylər, dəri, kağız, kənd və fəllahət [kənd təsərrüfatı] və qeyri maşinalar.

### Dəmiryolunda

* Azərbaycan Dəmiryollarında olan Ərzaq şöbəsinin Təftiş komissiyası xahiş edir ki, hər kəs Ərzaq şöbəsində olan xəyanətkarlıqları aşkar etməkdən ötrü bir əhvalat bilirsə, həmin komissiyaya xəbər versin.

* Dəmiryollar naçalniki dəmiryol xətlərinə böylə bir teleqraf göndərmişdir: "Dəmiryollarında sərnişinlərə edilən təcavüzlər haqqında alınan təzə xəbərlərə görə, böylə hadisələrin qarşısını almaq-

dan ötrü ciddi tədbirlər görülməlidir. Sərnişinləri incidənlər və təhqir edənlər dərhal həbsə alınaraq əsgəri məhkəməyə verilməlidirlər. Hamı naçalniklər öz qulluqçularının hərəkatı [hərəkətləri] haqqında məsul olacaqlardır.”

* Bugünlərdə Amerika Maarif Nəzarəti nümayəndələri Tiflisə və Bakıya varid olub [gəlib], Amerikada təhsilə getmək arzusunda olanlara böylə şərait [şərtlər] təklif edirlər: Təhsilə getmək istəyənlər Amerikaya getməkdən təmin olunaraq, təhsili itmam [tamam] edənədək Amerika Hökumətinin hesabına yaşayacaqlardır. Amerikaya gedənlər heç bir məxaric etməyib, ancaq təhsilindən qurtardıqdan sonra 5 il Amerikada qalıb hökumətə pulsuz xidmət etməlidirlər. Bu şəraitlə Tiflis şəhərindən 800 nəfər Amerikaya getmək istəmişdir.

* Asayiş bərpa edildiyinə görə, dəmiryollar ilə əmval [mallar] aparılması məhdudatı [məhdudiyyətləri] ləğv edilmişdir. Bu qərar üzrə dəmiryol ilə getmək istəyənlər şeylərinin siyahısını tutmadan apara bilərlər.

**Xəyanət**

Zaqatalada mövcud kooperativ dükanlarına taxıl gətirib bez, sabun və başqa şeylər aparmaq üçün Zaqataladan Bakıya gələn 4 müsəlman və bir rus vəkilləri Ərzaq Nəzarətindən aldıqları 50 min arşın bezin 20 mini müsəlman vəkillərində qalıb, qalan 200 min manatlıq əşyanı da Similt familiyasındakı rus vəkili Bakıda satmaqla böylə bir xəyanət etmişdir. Rusun yeri məlum deyildir.

**Üçüncü Ali ünas [qızlar] məktəbində**

Bələdiyyə tərəfindən açılmış Üçüncü Ali ünas məktəbində təlim üçün gələn müsəlman qızları bu il sabiq illərdən çox artıq qələbəlik edirlər. Təlim ilinin yarısı keçmişsə də, müsəlmanlar genə öz qızlarını, çox vaxt təlim yaşına çatmamış övladlarını da məktəb rəisəsinin hüzuruna gətirib, min cür xahişlərlə qızlarını məktəbə almağı tələb edirlər. İş bir dərəcəyə çatmış ki, məktəbin ibtiadi sinfi üç müsavi [bərabər, eyni dərəcəli] şöbə açmağa məcbur olmuşdur. Axırıncı “T” şöbəsində bu gün 50-dən ziyadə mütəəllimə [qız şagird] yığılmışdır. Bu iş qanuni-təlimə [təhsil qanununa] nə qədər müğayir [zidd] görülərsə də, məktəb rəisəsi 4-cü, yəni “S” şöbəsi açmaqdan dəxi aciz olduğu üçün valideynin təmənnalarına qarşı bu ağır vəzifəni öhdəsinə almaq məcburiyyətində olmuşdur.

Bir tərəfdən müsəlman valideynlərin elm və tərbiyəyə birdən-birə artıq həvəs və şövq göstərmələri, digər tərəfdən də çocuqların tərbiyəyə və elmə əşəddi-ehtiyaclarını [şiddətli ehtiyaclarını] qəlbən təqdir etməklə, rəisə xanım bunları geri qaytarammır.

Hamıdan artıq çocuqların müsavi cəhətdən ehtiyacları, çoxusunun cındır və natəmiz libaslarla getdikləri və çox vaxt təlim və tədrisə lazım olan kitab və dəftərləri pul ilə almağa möhtac olmaları, ümumən müəllimə xanımları çox acındırır. Bu əhvala valideyn şuralarının və baxüsus [xüsusilə] Ünas cəmiyyəti-xeyriyyə heyəti-idarəsinin nəzərini cəlb etməyi məsaili-cariyyədən [cari məsələlərdən] ədd [hesab] ediriz.

## ƏRZAQ İŞLƏRİ

* "Pobeda" giliz [papiros] fabrikasının vəkili Abram İsayeviç Qrjebinə Ticarət və Sənaət Nəzarəti ilə əqd olunan müahidəyə [bağlanan müqaviləyə] əməl etdiyinə görə, Bakıdan Tiflisə 1064 put munştuçnı [müştük] yabin və 800 put kardon aparmasına Ərzaq Nəzarəti icazə vermişdir.

* Ərzaq Nəzarəti, Ticarət və Sənaət Nəzarətinə təcili bir məktub göndərib Azərbaycan Hökuməti dairəsindən çıxarılması qadağan edilən şeylərin siyahısını istəmişdir.

* Ərzaq Nəzarəti, Daxiliyyə Nəzarətinə bir məktub göndərib xəbər verir ki, dekabrın 14, 23 və 31-ində Quba qəza qaimməqamına [qəza rəisinə] Ərzaq Nəzarəti tərəfindən yazılan məktublara cavab alınmamışdır. Xüsusi alınan xəbərlərə görə, Quba uyezdində türklərin zəkat təriqi ilə [zəkat olaraq] yığdıqları taxıl, türklər getdikdən sonra qəza qaimməqamı tərəfindən satılmışdır. Buna binaən [buna görə], xahiş olunur Quba qaimməqamına təklif edəsiniz ki, həmin məsələ haqqında məlumat versin.

### "Sentrodom" və Ərzaq Nəzarəti

Necə ki məlumdur, "Sentrodom" Bakıda müxtəlif məhəllələrdə xüsusi çörəkçi dükanları açıb əhaliyə ucuz çörək satmaq fikrinə düşmüşdür.

Çün "Tsentrodom"un heç bir sərmayəsi yoxdur, bütün məsarif və məxaricatı da Ərzaq Nəzarətindən alıb əhaliyə payladığı ehtiyacati-zəruriyyə [zəruri ehtiyaclar] və ərzaq (rasion) paylarının üstünə gələn faizlərdən ibarətdir. Ona görə də "Sentrodom", Maliyyə Nəzarətinə müraciətlə həmin çörəkçi dükanları üçün külli miqdarda nəqdi müavinət [nağd pul yardımı] istəmişdir. Maliyyə Nəzarəti isə şu məsələ Hökumətin ərzaq politikasına dair olduğu üçün "Sentrodom"un ərizəsini Ərzaq nazirinə göndərib, onun rəyini bilmək istəmişdir.

Keçən gün Ərzaq naziri Lizqar cənabları "Sentrodom"un ərizəsinə görə şu mülahizatını xüsusi məktubla Nəqdiyyə Nəzarətinə [Maliyyə Nazirliyinə] bəyan etmişdir:

1) Şəhərdə çörək bişirib əhaliyə ucuz qiymətlə satmaq işini Mərkəzi Ərzaq Bürosu dəröhdə etmişdir [öhdəsinə götürmüşdür] və bu büronun baş heyəti-idarəsi Müttəfiq hökumətlər nümayəndələrindən ibarətdir.

2) Həman Müttəfiq komandan nümayəndələrinə Ərzaq Nəzarəti bu məqsəd üçün bir neçə milyonluq nəqdi müavinətdə bulunmuşdur.

3) "Sentrodom" bir üzv olmaq şərti ilə həman Mərkəzi Ərzaq Bürosuna daxildir və bu münasibətlə də "Sentrodom" gərək müavinət üçün Mərkəzi Büroya rücu [müraciət] etsin.

4) "Sentrodom"un təhti-idarəsində [idarəsi altında] bir o qədər əmlaki-qeyri-mənqulə [daşınmaz əmlak] və ya ki, malütticarə [ticarət malı] yoxdur ki, onun istədiyi miqdarda nəqdi müavinəti ona vermək olsun. Bu səbəblərdəndir ki, "Sentrodom"un xahişi gərək rədd edilsin.

## İZHARİ-TƏŞƏKKÜR

Möhtərəm "Azərbaycan" qəzetəsi müdiri cənabları.

Cənabınızdan acizanə rica edirəm ki, mənim qaç [bir neçə] sətirdən ibarət zirdəki [aşağıdakı] təşəkkürat sözlərimi təhti-müdiriyyətinizdə mətbu cəridənizin [idarəniz altında çap olunan qəzetinizin] bir sütun[un]da dərc etdirəsiniz.

Bu sənə rəbiülmövludun eyd günündə [rəbiüləvvəl ayında, Peyğəmbərin mövlud bayramı günündə] müdiriyyətim altında bulunan Ərəkit ibtidai məktəbinin biçiz [yoxsul] şagirdləri nəfinə [xeyrinə] olmaq üzrə həmin kəndin hümmətli və zatən daha ilərilərdən maarifpərvərlikdə şöhrət qazanmış vətəndaşları olan Kərbəlayi Nəsrulla Süleymanzadədən 100 manat və Kərbəlayi Əbdüləli Məşədi Əşrəf oğlundan 25 manat müavinəti-nəqdiyyə [pul köməkliyi] olmaqla ianə edilmişdir. Bundan dolayı böylə maarif-mənd və tərəqqini sevən, mədəniyyətə maddi cəhətdən müavinətdə bulunan bu zəvatdan [şəxslərdən] möhtərəm cəridəniz [qəzetiniz] vasitəsilə izhari-təşəkkür edirəm, əfəndim.

*Ərəkit ibtidai məktəbi müdiri*
*Həsən Rəhimzadə*

## İDARƏYƏ MƏKTUB

"Bəsirət"in son nömrəsinin "Bakı xəbərləri" qismində bugünlərdə Bakıda "Al bayraq" namında bir qəzetənin "Müsavat" firqəsi tərəfindən çıxarılacağı bildirilirdi. Bu xəbər yanlış dərc edilmişdir. Böylə ki, "Al bayraq" müsəlman sosialistləri tərəfindən nəşr edilir. Bu babda təshihi-keyfiyyət [düzəliş] ediriz.

*"Bəsirət" idarəsi*

## İDARƏDƏN CAVABLAR

Məhəmmədzadə Abbasəli əfəndiyə: Ağır günlərimizdə böyük fədakarlığı ilə məşhur olan Ağdaşın arşın malı, şəkər, çay və sairədən, sair yerlər kimi hissəbərdar olmaması [payına düşəni almaması] xüsusunda Ərzaq Nəzarətinə və məbussuz qaldığı barədə də Parlaman rəyasətinə doğrudan doğruya müraciət etməniz daha mənfəətli olar.

R. Rəhimli əfəndiyə: Lahıc qəsəbəsindəki camaat məktəbinin indiyə qədər qapalı qalmasından mütəəssir olaraq, bu xüsusda həman məktəbin müəllimlərini müqəssir görürsünüz. Halbuki, əldə dəliliniz yoxdur. Məktəbin filhəqiqə [həqiqətən də] nə səbəbdən bağlı olduğu xüsusunda səhih [doğru] məlumat əxz [əldə] etsəniz yaxşı olar.

Zal əfəndiyə: Yazmış olduğunuz "Yaxşı yol" sərlövhəli beş bəndi-mürəbbe [dörd misralıq] şeirlərinizdən xoşumuza gələni bu qədər oldu:

"Gedin, geri gülər üzlə qayıdanda
İsmayıl qurbanı olar muştuluq."

Bu da fəna deyildir:

"Uçun, vətən ürəyinin quşları
Parlaq Qərbə bizdən salam söyləyin."

Bu şərtlə ki, Qərbin tərifi olan "parlaq" sözünün əvəzinə daha münasib bir söz olaydı.

Bakı Sənaye məktəbinin şagirdi Yusif Əlizadə əfəndiyə: Sizin də "Hilala" sərlövhəli şeirinizdən bunu bəyəndik:

"Ey göy üzündə seyr edərək parlayan hilal!
Ey millətim ümidi, müqəddəs, gözəl camal!"

Şeirinizdə, şairi-şəhirimiz [məşhur,

tanınmış şairimiz] Məhəmməd Hadi Əbdülsəlimzadə cənablarının əsəri-xamələrinin [qələmindən çıxmış əsərlərin] təsiri görünür.

## İANƏ

Artist Mirzə Muxtar Məhəmmədov nəfinə [xeyrinə] Ağakərim Axundovdan 100 manat ianə vüsul olub [çatıb], idarəmiz tərəfindən Mirzə Muxtar əfəndiyə təslim edilmişdir.

**İtibdir**

3 gün bundan əqdəm [qabaq] Əziz Məhəmmədəli oğlu 14 yaşında evdən çıxıb, bu vaxta kimi qayıtmamışdır. Əynində ağ pencək, ayağında çarıq və başında da təsək [papaq, araqçın] vardır. Bundan xəbəri olanlardan rica olunur 10-cu uçastokda pristava xəbər versinlər.

**Petroqraddan gəlmiş diş həkimi M. B. Şternin**

Naxoşları qəbul edir səhər saat 9-dan 2-yə kimi və axşam 4-dən 7-yə kimi. Dişlərə və ağza müalicə edir, qızıl və kauçuk üzərində süni dişlər və qızıl qapaqlar qayırır. Dişləri ağrısız kənar edir. Ünvan: Vorontsovski caddədə Sarkisovanın 22 nömrəli evində, Bakı İstiqraz Cəmiyyəti ilə bir cərgədə.

*2642*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Həkim S. L. Şklovskaya**

Mamalıq və daxili ünas əmrazını [qadın xəstəliklərini] qəbul edir. Naxoşlar qəbul olunur: səhər saat 9-dan birə və 5-dən 7-yə qədər. Ünvan: Aziatski küçədə nömrə 153, Bolşoy Marskoy və Krasnovodski küçələrin arasında. Telefon: 50-67.

*209*

**Doktor Rza bəy Sultanov Paris Darülfünunundan**

Qəbul edir daxiliyyə və əsəbi xəstələri hər gün səhər saat 9-1-ədək, axşam saat 4-7-yədək. Telefon 57-40. Adres: Persidski küçədə 22 nömrəli evdə, Gimnaziçeski küçənin küncndə.

*2603*

**Doktor Leonid Ter-Avanesov**

Daxili naxoşları və naxoş çocuqları qəbul etməyəbaşlamışdır. Hər gün səhər saat 8 yarımdan 9 yarıma kimi; 12-dən 2-yə kimi; axşam 4-dən 6-ya kimi. Ünvan: Merkuryevski küçədə 5 nömrəli evdə (Doktor Parsadanovun azarxanasında). Telefon 41-18.

*2627*

**Doktor Əliheydər Allahverdiyev**

Daxili naxoşları qəbul edir:

Səhər saat 8-dən 10-adək; axşam saat 4-dən 6-yadək. İçəri şəhərdə Malı Krepostnovı küçədə 8 nömrəli evdə. Telefon nömrəsi 36-91. Малая-Крѣпостная ул. д. № 8. Телефон № 36-91.

*2603*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

Bakı Obşestvenni Sobraniyasının [Bakı İctimai Yığıncağının] Müvəkkilər Şurası, Obşestvenni Sobraniya işlərini idarə etmək arzusunda olan zəvatdan [şəxslərdən] bu barədə Müvəkkillər Şurasına ərizə vermək təklif olu-

nur. Ərizələr Sobraniya kantorasında bu ilin kanuni-sani [yanvar] 20-sinə kimi qəbul olunur.

*T-9*

**Elan**

Bakı Tacirlər Bankası, Azovsko-Donskoy, Voljsko-Kamski, Beynəlmiləl, Qafqaz, Rus-Asiya, Rus Xariciyyə Ticarəti, Müttəfiq, İran İstiqraz və Tiflis Tacirlər bankalarının Bakı şöbələri, 1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri ümuma elan edirlər ki, bu bankaların xəzinə və cari hesabatına daxil olan nəqdiyyə məbləğlər yenə də qeyriməhdud əndazədə nağd pul ilə taliblərə [tələb edənlərə] qaytarılır.

*2644*

***Müdir və baş mühərrir:***
***Ceyhun bəy Hacıbəyli***

## QEYD VƏ ŞƏRHLƏR

**Zaqatal məsələsi**

səh. 219. "İnqlo": ingiloylar nəzərdə tutulur.

səh. 220. "Sereteli": Gürcüstan Demokratik Respublikasının və Gürcüstan Sosial-Demokrat Partiyasının liderlərindən biri olan İrakli Georgiyeviç Sereteli nəzərdə tutulur.

"Neftlik": Şərqi Gürcüstanda mühüm dəmiryolu qovşağı olan Naftluqi stansiyası nəzərdə tutulur.

**Əsgərlik vəzifəmizdir!**

səh. 211. "...müstəqil cümhuriyyət qurmuşuz...": qəzetdə "müstəqil cümhuriyyətlər qurmuşuz" kimi getmişdir.

səh. 222. "...və biz də əsgər təlimi görmüş olsaydıq...": qəzetdə "və bir də əsgər təlimi görmüş olsaydıq" kimi getmişdir.

**Teleqraf xəbərləri**

səh. 223. "Qaliş": Şərqi Avropada (Polşa və Ukrayna ərazisində) yerləşən tarixi Qalisiya vilayəti nəzərdə tutulur.

**Bakı neft ticarəti və onun müxtəsərcə tarixi**

səh. 226. "...quyunun gər neft məhsulatı...": qəzetdə "gər" yerinə "hər" getmişdir.

"...neftli quyulara borular (обсадные трубы) sallanıb...": çox dözümlü materialdan hazırlanan geniş diametrli belə "oturtma boruları" quyu divarlarının möhkəmləndirilməsi məqsədi ilə quyunun içinə yerləşdirilirdi.

**Şəhərimizdə xəstəlik**

səh. 228. "Aboz" (rusca "обоз"): Bakı şəhərində zibillərin daşınması ilə məşğul olmuş təşkilat.

### Qarabağ əhvalı

səh. 230. "Abdulla Həmid Qənizadə": çox güman ki, "Əbdülhəmid Qənizadə" olmalıdır.

### Bakı xəbərləri

səh. 231. "Dəmiryollar naçalniki": Azərbaycan Dəmiryolu İdarəsinin rəisi Teymur bəy Məlikaslanov idi.

səh. 232. "Axırıncı 'T' şöbəsində... yəni 'S' şöbəsi açmaqdan...": Belə başa düşülür ki, şöbələr əlifba sırasına görə hərflərlə adlandırılmışdır; "T" ərəb əlifbasının 3-cü, "S" isə 4-cü hərfidir.

### Elan

səh. 236. "Beynəlmiləl": Sankt-Peterburq Beynəlxalq Kommersiya Bankı nəzərdə tutulur.

"Müttəfiq Bank": "Birləşmiş Bank" [Соединённый банк] nəzərdə tutulur.

"İran İstiqraz Bankı": İran Mühasibat və Kredit Bankı nəzərdə tutulur.

"Tiflis Tacirlər Bankı": Tiflis Kommersiya Bankı nəzərdə tutulur.

"1-ci və 2-ci Müttəhid İstiqraz cəmiyyətləri": "Qarşılıqlı Kredit Cəmiyyəti" nəzərdə tutulur. Bu cəmiyyətin Bakıda iki şöbəsi olmuşdur.